**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ**
**PUBLİK HÜQUQİ ŞƏXS**

AZƏRBAYCAN DÖVLƏT
MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT
UNİVERSİTETİ

**Təsdiq edirəm**
**ADMİU-nun rektoru**
**_________professor C.E.Mahmudova**

# ELM VƏ YARADICILIQ İŞLƏRİ ÜZRƏ PROREKTORLUĞUN

# ƏSASNAMƏSİ

**Azərbaycan Dövlət Mədəniyyət və**
**İncəsənət Universitetinin Elmi Şurasının**
**_12_ sentyabr 2023-cü il tarixli iclasının**
**___01___№-li protokolu ilə təsdiq edilmişdir**

**Bakı - 2023**

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin**
**Elm və yaradıcılıq işləri üzrə prorektorluğun**

# ƏSASNAMƏSİ

Bu əsasnamə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elm və yaradıcılıq işləri üzrə prorektorluğun fəaliyyət istiqamətlərini, məqsəd və vəzifələrini, funksiyalarını, strukturunu, hüquq və məsuliyyətini müəyyən edir.

## 1.ÜMUMİ MÜDDƏALAR

1.1. ADMİU-nun Elm və yaradıcılıq işləri üzrə prorektorluğu (Bundan sonra prorektorluq) Universitetin elmi-tədqiqat fəaliyyətini, elmi-yaradıcı kadrların hazırlanmasını tənzimləyən, əlaqələndirən, istiqamətləndirən, nəzdində fəaliyyət göstərən şöbələrdə tənzimləməni həyata keçirən, Universitetin struktur bölməsidir. Prorektorluğun əsas məqsədi Universitetdə elmi-tədqiqat işlərinin aparılmasında elmi işin səmərəliliyini artırmaq, nəşr fəaliyyətinin artırılmasını təmin etməkdir.

1.2. Prorektorluğa aşağıdakı struktur bölmələr daxildir:

- Elm və doktorantura şöbəsi;
- Yaradıcılıq layihələrinin idarə olunması şöbəsi

1.3 Prorektorluğun nəzdində 2 elmi-nəzəri məcmuə fəaliyyət göstərir: "Mədəniyyət dünyası" və "ADMİU-nun elmi əsərləri".

1.4. Prorektorluq fəaliyyətində "Təhsil haqqında" və "Elm haqqında" Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 20 sentyabr 2010-cu il tarixli 167 saylı "Təhsil müəssisələrinin akkreditasiyası qaydaları"nın təsdiq edilməsi haqqında qərarını, Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən 23 dekabr 2013-cü il tarixli 927 saylı Əmr ilə təsdiq edilmiş "Tədris vəsaitlərinə nəşr hüququ (qrif) verilməsi" Qaydaları, "Ali təhsil pilləsinin dövlət standartı və proqramı", "Azərbaycan Respublikasında çoxpilləli ali təhsil sistemində magistr hazırlığı (magistratura) haqqında Əsasnamə", "Magistratura təhsilinin məzmunu, təşkili və «magistr» dərəcələrinin verilməsi qaydaları", "Magistrlik dissertasiyasının müdafiəsi üçün ixtisaslaşdırılmış Elmi Şuralar haqqında Əsasnamə", "Ali (orta ixtisas) təhsili müəssisələri tələbələrinin ixtisas üzrə təcrübəsinin keçirilməsi haqqında Əsasnamə","Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində kredit sistemi ilə tədrisin təşkili qaydaları", "Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında Əsasnamə, 2010-cu il 01 iyul tarixli 129 saylı qərarı ilə təsdiq edilmiş "Doktoranturaların yaradılması və doktoranturaya qəbul qaydaları", Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Əsasnamələrini, Ali və orta ixtisas

təhsili müəssisələrinin fəaliyyəti ilə bağlı Əsasnamələrin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 6 noyabr tarixli 242 nömrəli qərarna 1 №-li Əlavə "Ali təhsil müəssisələrində elmi-tədqiqat işlərinin təşkili və planlaşdırılması haqqında Əsasnamə", Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Kollegiyasının 20 dekabr 2017-ci il tarixli 18-1 nömrəli qərarı ilə təsdiq edilmiş "Təhsil sahəsinə aid olan qulluqçu vəzifələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası"nı, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 12 avqust tarixli 301 nömrəli publik hüquqi şəxsə çevrilməsi haqqında qərarını, bu qərara əlavə olaraq təsdiq edilmiş ADMİU-nun Nizamnaməsini və digər normativ hüquqi aktları rəhbər tutur.

1.5. Prorektorluq birbaşa Rektora tabedir.

1.6. Prorektorluğun strukturu və ştat cədvəli rektor tərəfindən təsdiq edilir.

1.7. Prorektor Elm və Təhsil Nazirliyi tərəfindən təyin və azad edilir. Prorektor elmi-metodiki və elmi işlərə rəhbərlik edir, aparılan elmi tədqiqatların müasir standartlar səviyyəsinə çatdırılmasına, elmi tədqiqat işlərinin nəticələrinin tədris prosesində və istehsalatda tətbiqinin təşkil olunmasına çalışır. Kafedraların elmi-metodiki və elmi-tədqiqi işlərini, elmi konfransları təşkil edir. Doktorantların (tədqiqatçıların) hazırlanmasına və elmi-pedaqoji kadrların ixtisasının artırılmasına nəzarət edir. Beynəlxalq elmi əlaqələri genişləndirir, elmin informasiya təminatını gücləndirir. Elmi nailiyyətlərin tətbiqi üzrə tədbirlər görür. Tələbə elmi-yaradıcılıq cəmiyyətinə, elmi tədqiqat bölməsinə rəhbərlik edir.

1.8. Prorektorluq Universitetin Elmi Şurasının qərarı əsasında rektorun əmri ilə yaradılır, yenidən təşkil edilir və ləğv edilir.

1.9. Prorektorluq öz fəaliyyətini strukturuna daxil olan şöbələr və strukturuna daxil olmayan tabeliyindəki qurumlar (fakültələr, kafedralar və s.) vasitəsilə həyata keçirir.

1.10. Prorektorun nəzdindəki şöbə müdirləri Universitetin rektoru tərəfindən vəzifəyə təyin və azad edilir.

1.11. Prorektorluq aşağıdakı ünvanda fəaliyyət göstərir: AZ1065, Bakı ş., İnşaatçılar pr.39
E-mail: sadagat-aliyeva@mail.ru

## 2. PROREKTORLUĞUN FƏALİYYƏT İSTİQAMƏTLƏRİ

2.1 Prorektorluğun fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.2. müvafiq sahənin inkişafını təmin etmək;

2.3. Universitet kafedralarının fundamental tədqiqat fəaliyyətinin strategiyasının formalaşdırılması, idarə edilməsi və inkişafının təşkili;

2.4. Universitetin elmi fəaliyyətini əlaqələndirmək və istiqamətləndirmək;

2.5. Elmi tədqiqat elementlərinin tətbiqi bacarıqlarını formalaşdırmaqla doktorantların və gənc alimlərin hazırlıq səviyyəsinin yüksəldilməsinə töhfə vermək;

2.6. Universitetin Elmi-metodiki Komissiyasına və Bədii Şurasına rəhbərliyi həyata keçirmək;

2.7. Universitetin yaradıcılıq layihələrinə rəhbərliyi həyata keçirmək;

2.8. Elmi fəaliyyətin nəticələrinin uçotunun aparılması və təhlili, universitetin struktur bölmələrinin əməkdaşlarının elmi və intellektual fəaliyyətinin nəticələrinin uçotunu, saxlanmasını və onlara operativ çıxışını təmin etmək;

2.9. Materialları indeksləşmiş bazalara daxil edilən nüfuzlu beynəlxalq elmi tədbirləri (konfrans, konqres, forum və s.) təsis və təşkil etmək.

## 3. PROREKTORLUĞUN ƏSAS VƏZİFƏLƏRİ VƏ FUNKSİYALARI

3. Bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq prorektorluğun vəzifə və funksiyaları aşağıdakılardır:

**3.1.Elmi-tədqiqat işləri üzrə:**

- Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən elmi-tədqiqatla bağlı əmr, sərəncam, göstərişlərin həyata keçirilməsində cavabdehlik;

- Universitetin elm potensialının inkişafı;

- Təhsilin elmi tutumluğunun artırılması;

- Elmi-tədqiqat fəaliyyətinin təlim və tədris prosesinə inteqrasiyasını təmin etmək;

- Universitetin ümumi elmi inkişaf proqramlarının həyata keçirilməsi, professor-müəllim heyətinin tədqiqatlarının səviyyəsinin yüksəldilməsi və kafedraların elmi-tədqiqat fəaliyyətinin genişləndirilməsi;

- Yüksək ixtisaslı elmi-pedaqoji kadrların hazırlanmasına yardım göstərilməsi, tələbə, magistrant və doktorantların elmi fəaliyyətinin təşviq edilməsi, Universitetin elmi-texniki potensialının inkişaf etdirilməsi;

- Elmi nəşrlərin təşkili;

- Jurnallarda dərc olunan məqalələrin hər birinə Obyektin Rəqəmsal İdentifikatoru (DOI) alınmasına dəstək vermək;

- Akademik kadrların mobilliyinin gücləndirilməsi;

- Beynəlxalq proqram və layihələrdə, konfranslarda iştirak;

- Xarici mütəxəssisləri qonaq qismində cəlb etməklə mühazirə və vebinarların, onlayn konfransların keçirilməsi;

- Qabaqcıl universitetlərin nümayəndələrinin dəvəti ilə beynəlxalq səviyyəli konfransın təşkili;

- Universitetin elmi fəaliyyətinin vəziyyəti, inkişaf perspektivləri və digər analitik məlumatların, araşdırma işlərinin və yekununa dair hesabatların elmi şuraya təqdim edilməsi;

Universitet miqyasında elmi tədbirlərin təşkili və kafedra tədbirlərinin, o cümlədən elmi konfransların, forumların, dəyirmi masaların və s. təşkilində Universitetin struktur bölmələrinə köməklik göstərmək.

Universitetin elmi fəaliyyəti haqqında illik hesabatın formalaşdırılması və elmi işlər üzrə prorektorun əmrlərinə uyğun olaraq təşkilat və müəssisələrdən Universitetə daxil olan digər hesabatların və sorğuların hazırlanması.

**3.2.Yaradıcılıq-ifa işləri üzrə:**

- Bədii Şuranın fəaliyyətinə nəzarət:

- Professor-müəllim heyətinin yaradıcılıq fəaliyyətinin müasir tələblər səviyyəsində təşkili, onların innovativ fəaliyyətə istiqamətləndirilməsi üçün tədbirlərin hazırlanması və həyata keçirilməsi;

**3.3. Doktorantura və dissertantura üzrə:**

- doktorantların elmi fəaliyyətinin təşviq edilməsi;
- doktorant və dissertantların elmi fəaliyyətinə aid olan bütün məsələlərin icrasına nəzarət

**3.4 Universitetin professor-müəllim heyətinin akademik fəaliyyətinin illik Elmmetrik təhlili üzrə:**

- professor-müəllim heyətinin Scopus, Web of Science, Google Scholar kimi bazalarda şəxsi hesablarının yaradılmasına nəzarət;
- professor-müəllim heyətinin Scopus, Web of Science, Google Scholar kimi bazalarda h-indexinin hesablanmasına nəzarət;
- professor-müəllim heyətinin beynəlxalq elmmetrik bazalara daxil olan jurnallarda məqalələrin çapına nəzarət;
- Universitetin elmi jurnallarınının beynəlxalq elmmetrik bazalara daxil olması üçün mütəmadi dəyişən tendensiyaların izlənilməsi və işlənilməsinə nəzarət;
- professor-müəllim heyətinin beynəlxalq elmmetrik bazalara daxil olan jurnallarda məqalələrin çapına nəzarət.

**3.5 Magistratura üzrə:**

- Magistratura təhsili üzrə yeni təhsil proqramlarının açılması və ya mövcud proqramların kafedraların rəyi əsasında təkmilləşdirilməsi, elmi-pedaqoji kadr hazırlığı və elmi-tədqiqat işlərinin təşkili barədə universitet rəhbərliyi qarşısında məsələ qaldırmaq və təkliflər vermək;
- Hər il daxil olan 2 illik magistrantlara elmi rəhbərlərin təyin edilməsi və dissertasiya mövzularının işinə nəzarət;
- Hər il daxil olan 1.5 illik magistrantlara elmi rəhbərlərin təyin edilməsi və yaradıcılıq mövzularının işinə nəzarət;
- Magistr mövzularının elektron bazalarda yaradılması və yerləşdirilməsinə nəzarət.

## 4. PROREKTORLUĞUN HÜQUQLARI

4.1. Öz vəzifələrini yerinə yetirmək üçün prorektorluq aşağıdakı hüquqlara malikdir:

4.2.Dekan və kafedra müdirlərindən şöbə tərəfindən verilən göstərişlərin yerinə yetirilməsi, aparılan elmi-tədqiqat işlərinin aktuallığının təmin olunması, işin qoyulan tələblərə cavab verməsi və s. məsələlərlə bağlı hesabatları tələb etmək;

4.3.Mütəmadi olaraq Elmi-metodiki komissiya və Bədii Şura sədrlərinin hesabatlarını tələb etmək;

4.4.Universitetin kafedralarında aparılan fundamental elmi-tədqiqatların və yaradıcılıq-ifa işlərinin vaxtında yerinə yetirilməsi barədə təkliflər vermək;

4.5.Milli, mədəni və elmi dəyərlərin qorunması və inkişafı istiqamətində yeni layihələr, tövsiyələr hazırlamaq;

4.6. Elmi rəhbərlərdən, kafedra müdirlərindən magistrantların təlim göstəriciləri, imtahanlar, doktorant və dissertantların attestasiyası haqqında məlumatların və sənədlərin, o cümlədən elmi-pedaqoji kadr hazırlığı və tələbələrin elmi-tədqiqat işləri barədə digər sənədlərin vaxtında şöbəyə təqdim edilməsini tələb etmək;

4.7. Səlahiyyətləri çərçivəsində xidməti yazışmalar aparmaq;

4.8. Şöbələrin fəaliyyəti ilə əlaqədar məsələlərin müzakirəsində iştirak etmək.

## 5. PROREKTORLUĞUN MƏSULİYYƏTİ

5.1. Prorektor tərkibində fəaliyyət göstərən şöbələrdə bu Əsasnamə ilə müəyyən edilən vəzifə və funksiyaların vaxtında və keyfiyyətlə yerinə yetirilməsi, fundamental elmi-tədqiqat işlərinin araşdırılması işinin aparılması, yaradıcılıq-ifa işlərinin peşəkarlıqla hazırlanması, monoqrafiya, dərslik, dərs vəsaiti, proqram və metodik vəsaitlərin tərtib olunması, keyfiyətinin yoxlanılması, qriflə təmin olunmasına , magistratura və doktorantura səviyyələrində elmi-pedaqoji kadr hazırlığının, təlim tədris prosesinin təşkili, təhsilin keyfiyyəti və idarə olunması, fərdi məlumatların qorunub saxlanılması və mobilliyi üzrə biavasitə məsuliyyət daşıyır.

5.2. Prorektorluğun əməkdaşlarının məsuliyyəti onların vəzifə təlimatları ilə müəyyən edilir.

5.3. Prorektorluq, öz fəaliyyəti ilə bağlı vaxtaşırı Universitet rektoruna və Elmi Şuraya hesabat verir.

5.4 Prorektor prorektorluğun işçilərinin fəaliyyəti, bu fəaliyyətin effektliliyi üçün məsuliyyət daşıyır.

5.5. Prorektorluğun Əsasnaməsi Universitet Elmi Şurasının qərarına əsasən Rektor tərəfindən təsdiq edilir.